# 2015-ci il, birinci rüb: Qəbələnin sosial-iqtisadi inkişafında yeni mərhələ

## Rayon icra hakimiyyətində geniş müşavirə

***Aprel ayının 17-də rayon icra hakimiyyətinin akt salonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası ilə əlaqədar həmin dövrdə Qəbələ rayonunda görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş geniş müşavirə keçirilmişdir.***

***Müşavirəyə rayon icra hakimiyyəti başçısı yanında şuranın üzvləri, şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri dəvət olunmuşdular.***

***Müşavirəni rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq gündəlikdə 1 məsələ—Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası ilə əlaqədar həmin dövrdə Qəbələ rayonunda görülmüş işlər və qarşıda duran vəzifələr barədə məsələ olduğunu bildirdi. Məsələ ilə bağlı rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev hesabat məruzəsi etmişdir*** *(hesabat məruzəsi aşağıda dərc olunur).*

***Hesabat məruzəsi ətrafında 10 saylı Ərazi vergilər idarəsinin rəis müavini Elbrus Abdullayev, rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova, Abrıx kənd tam orta məktəbin direktoru Natiq Zəkəriyyəyev çıxış etmişlər.***

***Müşavirədə müvafiq qərar qəbul edilmişdir.***

***Sonda rayon icra hakimiyyətinin başçısı yekun nitqi söyləmişdir.***

# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

Hörmətli yığıncaq iştirakçıları, xanımlar və cənablar!

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda cənab İlham Əliyev 2015-ci ilin birinci rübünün yekunlarının müsbət olduğunu, bu dövrdə ümumi daxili məhsulun 5 faizdən çox artdığını demiş, Azərbaycanda dinamik inkişafın təmin edildiyini, son 3 ayda qeyri-neft sektorunun 7 faiz, sənaye istehsalının 4 faiz, kənd təsərrüfatının isə 3 faizdən çox artdığını bildirmişdir. Bütün bunların son illərdə ölkədə aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olduğunu deyən cənab Prezident dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinin ümumi dinamik inkişafımıza təsir etmədiyini söyləmişdir. Dövlətimizin başçısı ölkədə inflyasiyanın aşağı səviyyədə qaldığını, istehlak bazarına tam nəzarət edildiyini, əhalinin pul gəlirlərinin 5,3 faiz olduğunu da diqqətə çatdırmışdır.

Birinci rübdə də regionlarda müsbət meyillərin davam etdiyini, 30 minə yaxın yeni iş yerinin yaradıldığını deyən cənab İlham Əliyev qeyd etmişdir ki, ölkədə sosial məsələlərin həlli yenə də diqqət mərkəzindədir. Hazırda 20-dən çox tibb müəssisəsinin tikildiyini və ya təmir olunduğunu, əhalinin müayinədən keçirilməsi prosesinin davam etdirildiyini bildirən ölkə başçısı bu il dövlət investisiya proqramının geniş olduğunu və zəruri layihələrin icrasının nəzərdə tutulduğunu vurğulayaraq, ölkəmizdə həyata keçirilən islahatların aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirildiyini bildirmişdir. Ölkəmizin beynəlxalq nüfuzunun artdığını, Azərbaycanın dünya birliyinin dəyərli və etibarlı üzvünə çevrildiyini deyən Prezident İlham Əliyev yürüdülən xarici siyasətin çox çevik və fəal olduğunu diqqətə çatdırmışdır. Məhz bunun sayəsində son illərdə bölgədə yaşanan böhranlardan ölkəmizin itkisiz çıxdığına diqqət çəkən dövlətimizin başçısı qeyd etmişdir ki, bu gün Azərbaycan dünya miqyasında böyük hörmətə malik ölkə kimi tanınır.





Bu ilin əvvəlindən xaricə etdiyi çoxsaylı səfərlərin ölkəmizin beynəlxalq mövqelərini daha da möhkəmləndirdiyini vurğulayan Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışmış, Ermənistanın sülh istəmədiyini və status-kvonun dəyişilməz qalmasına çalışdığını bildirmişdir. Cənab İlham Əliyev keçən il həmsədr ölkələrin dövlət başçılarının iştirakı ilə təşkil olunan görüşlərdə Ermənistanın hər zaman özünü qeyri-səmimi apardığını, münaqişənin həllində maraqlı olmadığını və Azərbaycanın ərazilərinin işğal altında saxlanmasını davam etdirmək istədiyini demişdir.

İclasda Prezident cənab İlham Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll edilməli və ikili standartlara son qoyulmalı olduğunu bəyan etmişdir.

Dövlət başçısı çıxışında birinci rübdə baş verən iki önəmli hadisəyə- Bakıda "Cənub" Qaz Dəhlizi Məşvərət Şurasının iclasının keçirilməsinə və mart ayında Qarsda TANAP layihəsinin təməlinin qoyulmasına da toxunmuşdur.

Hörmətli yığıncaq iştirakçıları!

2015-ci ilin birinci rübündə Qəbələ rayonunda da sosial-iqtisadi sahədə görülən işlər uğurla davam etdirilmişdir. Cari ilin birinci rübündə rayonumuzda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 41.877 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə (40.457 min manat) nisbətən 1.420 min manat, yaxud 3,5 % çox olmuşdur.

Cari ilin I rübündə keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 13 min manat, yaxud 0,3%, kənd təsərrüfatında 40 min manat, yaxud 0,4 %, tikintidə 1.070 min manat, yaxud 5,7 %, nəqliyyatda 6 min manat, yaxud 0,6 %, rabitədə 6 min manat, yaxud 2,5 %, ticarətdə 285 min manat, yaxud 4,1 % artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 411 manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən (404 manat) 7 manat, yaxud 1,7 % çox olmuşdur.

Sənaye mallarının istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 65,7 % təşkil etmişdir.

Rüb ərzində sənaye müəssisələrində çalışan 947 nəfər işçinin orta aylıq nominal əmək haqqı 418 manat təşkil etmişdir ki, bu da əvvəlki illə (350 manat) müqayisədə 19,4 faiz çox deməkdir.

2003-cü ilin oktyabr ayından 1 aprel 2015-ci ilədək 12.971 yeni iş yeri açılmışdır. Ondan 10.923-ü daimi iş yeridir. I rübdə açılmış yeni iş yerlərinin sayı 275 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 22.418 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 19.741 min manat təşkil etmişdir. Əvvəlki illə (22.265 min manat) müqayisədə əsas kapitala yönəlmiş investisiyanın həcmi 153 min manat, yaxud 0,7 % artmışdır.

Rayonun yerli gəlirləri 2015-ci ilin I rübündə 2.708,2 min manat proqnoza qarşı 2.507,7 min manat (92,6%) və ya 200,5 min manat az, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 1.869,4 min manat dürüstləşdirilmiş proqnoza qarşı 2.109,0 min manat (112,8%) və ya 239,6 min manat çox, yerli xərcləri dürüstləşdirilmiş 4.577,6 min manat proqnoza qarşı 4.373,0 min manat (95,5%) və ya 204,6 min manat az icra olunmuşdur.

(Ardı 3-cü səhifədə).